Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

# "Böyük Qayıdış"ın uğurlu icrası ermənilərin reinteqrasiyasında müsbət təsirli rol oynaya bilər...

**İkinci Qarabağ müharibəsi qələbəmizlə başa çatdı, 30 il düşmən tapdağı altında qalan torpaqlarımız azad edildi, rahat nəfəs aldı. Doğma insanlara həsrət qalan çaylarımız, bulaqlarımız indi azadlıq nəğməsi oxuyur. Torpaq barını-bərəkətini verməyə tələsir. İnsan əli dəydikcə Tanrının gözəllikdən yoğurub yapdığı o yerlər daha füsunkar olur.**



İşğaldan azad olunmuş ərazilərimiz indi əvvəlkindən daha gözəl görkəm alır. O yerlərin əbədi sakinləri doğma evlərinə qayıtdıqca düşünürsən, çəkilən zəhmət hədər getmir. Azərbaycan Prezidenti İlham Əliyevin mayın 28-də öz doğma yurdlarına qayıdan laçınlılarla görüşündə dediyi kimi: "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun".

Bəli, bu gün dövlətimiz işğaldan azad edilmiş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün geniş quruculuq işləri aparır, möhtəşəm layihələr reallaşdırılır. Bütün bu işlərin icrasına yerli şirkətlərlə yanaşı, xarici şirkətlər də cəlb edilir. Məqsəd "Böyük Qayıdış" proqramına ən qısa zamanda reallaşdırmaqdır.

### Azərbaycan Qarabağdakı erməniləri öz vətəndaşları kimi qəbul etməyə hazırdır

Azərbaycan Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin reinteqrasiyasının həyata keçirilməsi, bununla da onların ağır sosial problemlərdən, həmçinin separatçıların təsir və təzyiqlərindən, daha dəqiqi əsarətindən qurtarmaları üçün növbəti dəfə imkan yaradıb. Belə ki, martın 13-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün növbəti görüşə dəvət edib. Görüşün Bakı şəhərində keçirilməsi təklif olunsa da, ermənilər bundan imtina etdi.

Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin bu tarixi şansı lazımi səviyyədə dəyərləndirmələri həm onların Azərbaycan qanunları çərçivəsində öz hüquq və imkanlardan yararlanmaq imkanları əldə etmələri, həm də sözügedən regionda yeni iqtisadi inkişaf dövrünün başladılması baxımından müstəsna əhəmiyyət daşıyır. Çünki nə qədər gizlədilməyə çalışılsa da Qarabağdakı mülki erməni əhalinin problemləri gündən-günə artır və bu problemlərin separatçılar tərəfindən həll edilməsi heç bir halda mümkün deyil. Bu, bir daha göstərir ki, Azərbaycan Qarabağdakı erməniləri öz vətəndaşları kimi qəbul etməyə, onların problemlərinin həlli istiqamətində müzakirələr aparmağa və konkret addımlar atmağa hazırdır.

### Azərbaycan Qarabağdakı erməni sakinlərin reinteqrasiyası üçün divarlar deyil, yollar çəkir…

Milli Məclisdə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" və reinteqrasiya ilə bağlı qanun layihəsi hazırlanacaq.

Bu məsələ Milli Məclisin İnsan hüquqları komitəsinin 2023-cü ilin iş planına daxil edilib. Bir daha sübut olunur ki, ermənilərin reinteqrasiyası ilə Böyük Qayıdış bir-birilə sıx bağlı olan prosesdir.

Rusiya sülhməramlıları müvəqqəti nəzarət etdikləri zonada müharibənin nəticələrinin aradan qaldırılmasında iştirak edir. Amma yaxşı olardı ki, bütün proseslərdə dominantlığı rəsmi Bakı etsin. Bölgədə gedən bütün proseslər rəsmi Bakının icazəsi və nəzarəti altında aparılmalıdır. Yalnız belə olacağı təqdirdə ermənilər Azərbaycan cəmiyyətinə reinteqrasiya oluna bilər.

Reinteqrasiya prosesində müxtəlif konsepsiyaların da icrası vacibdir. Lakin rəsmi İrəvanın tutduğu mövqe ermənilərin reinteqrasiya prosesinə əngəl olur. Müxtəlif sorğularda reinteqrasiya prosesinə müsbət yanaşmalar müşahidə olunur. Lakin həmin şəxslər təqiblərə məruz qalırlar.

Prezidentin köməkçisi Hikmət Hacıyev sosial media hesabındakı paylaşımlarından birində qeyd edib ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpus üzvləri və hərbi nümayəndələrin Ağdama səfəri çərçivəsində Ağdam-Xankəndi avtomagistralının və dəmir yolunun sxematik planı ilə tanışlıq olub.Məlumat verib ki, təkcə magistralın gündəlik tutumu 17.000 avtomobildir.

O vurğulayıb ki, Azərbaycan Qarabağdakı erməni sakinlərin reinteqrasiyası üçün divarlar deyil, yollar çəkir, onlar isə yollara bloklar və maneələr qoyurlar.

### Əgər kimsə Azərbaycanda yaşamaq istəmirsə, problem onun özündədir

Azərbaycanın öz ərazisində dövlət quruluşunun bərpası beynəlxalq hüquq normalarına uyğundur və heç kim daxili işlərimizə qarışa bilməz. Azərbaycan çoxmillətli və çoxkonfensiyalı dövlətdir. Ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss etdiyi halda, Qarabağda yaşayan ermənilər necə olur ki, yaşaya bilməsin? Əgər kimsə Azərbaycanda yaşamaq istəmirsə, problem onun özündədir. Bütün bunları nəzərə alaraq qeyd etmək istəyirəm ki, Qarabağda yaşayan ermənilərin reinteqrasiya olunmaqdan başqa yolu yoxdur. Onlar nə qədər tez reinteqrasiya prosesinə qoşularsa, öz yaşayışları və gələcəkləri üçün yaxşı olar".

***Məhəmmədəli QƏRİBLİ***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***